MÜBARİZ KEŞİKDƏ

4 iyun 2020-ci il
Cümə axşamı

№ 18 (3483)

www.mk.mia.gov.az - polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab əziyyətlidir.

Heydər Əliyev

PREZİDENT İLHAM ƏLİYEV "QOBU PARK-3" YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK EDİB

Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışı olub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və "Paşa Holding" şirkətinin nümayəndəsi, layihə rəhbəri Kamil Əliyev dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təməli ötən ilin iyulunda qoyulan kompleksdə yaradılan şərait barədə məlumat veriblər.

Bildirilib ki, sifarişçisi "Paşa Holding", podratçısı isə "Kristal Abşeron" MTK olan yeni qəsəbə Lökbatanda istifadəyə verilən "Qobu Park-1" və "Qobu Park-2" yaşayış komplekslərinin yanında inşa edilib. Bütün bu yaşayış komplekslərinin inşası Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilib.

Dövlətimizin başçısına və birinci xanıma ərazidə özəl şirkətlər tərəfindən inşa olunan yaşayış kompleksi barədə də məlumat verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin ərazisindəki 280 yerlik uşaq bağçasında yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısı və birinci xanım kompleksdə inşa olunan Füzuli rayon 4 saylı tam orta məktəbində yaradılan şəraitlə də tanış olublar.

Bütün bunlar göstərir ki, ölkədə həyata keçirilən strategiyanın əsas prioritetlərindən biri də uşaqların sağlam, firavan böyüməsi, gələcəklərinin tam təmin olunmasıdır.

Sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin layihəsi olan "Xarı bülbül" xalçaçılıq və naxış emalatxanası haqqında məlumat verilib.

Emalatxanada Qarabağın maddi-mədəni irsinə aid zərgərlik nümunələrinin hazırlanması da planlaşdırılır. Məhsullar yerli bazarla yanaşı, məcburi köçkünlərin əl işləri kimi xarici bazara da çıxarılacaq. Burada uşaqlar üçün ustad dərslərinin, rəsm dərnəyinin və xarici dil kurslarının təşkili də nəzərdə tutulur.

"Qobu Park-3" yaşayış kompleksində inşa olunan mənzillərlə tanışlıq zamanı dövlətimizin başçısına və birinci xanıma məlumat verilib ki, kompleksdəki mənzillərin ümumi sayı 1336-dır. Onların 156-sı bir, 580-i iki, 384-ü üç, 216-sı dördotaqlıdır. Bütün mənzillər mətbəx mebeli, soyuducu, fərdi kombi sistemi ilə təchiz edilib.

Qeyd edək ki, "Qobu Park-3" yaşayış kompleksi qaçqın və məcburi köçkünlər üçün salınmış 111-ci qəsəbədir. Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleksdə reallaşdırılan iki biznes layihəsi barədə də məlumat verilib.

Qeyd olunub ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı çərçivəsində reallaşdırılan layihələr məcburi köçkünlərin məşğulluğunun biznes-layihələr vasitəsilə təmin olunması məqsədi daşıyır. İlk dəfədir ki, qaçqın və məcburi köçkünlərin məskunlaşdığı ərazidə istehsal müəssisələri qurulub. Yumşaq, plastik oyuncaqlar və tekstil məhsullarının istehsal olunacağı müəssisədə 40-dan çox iş yerinin yaradılması nəzərdə tutulur. Müəssisədə gün ərzində 1000-ə yaxın yumşaq və 500-ə yaxın plastik oyuncaq istehsal ediləcək. Yumşaq oyuncaq təxminən 15-20, plastik oyuncaqlar isə 10 çeşiddə olacaq.

Sterilizə olunmuş tibbi ləvazimatların istehsalı müəssisəsində isə tibbi heyət üçün üst geyimləri və kombinezonlar istehsal ediləcək. Burada 25 nəfər işlə təmin olunacaq. Müəssisələrdə çalışacaq işçi heyətin 80 faizi "Qobu Park-3"ün sakinlərindən formalaşdırılacaq. Layihələr yalnız sosial əhəmiyyəti ilə seçilmir. Onlar, eyni zamanda, biznesyönümlüdür. Belə ki, hər iki müəssisədə istehsal olunacaq məhsullar rəqabətqabiliyyətlidir və idxalı əvəz edəcək.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məcburi köçkünlərlə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

NAZİR MÜSABİQƏ QALİBLƏRİNİ QƏBUL EDİB

Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov iyunun 2-də daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbulla əlaqədar elan edilmiş müsabiqənin qaliblərini qəbul ediərək onları əlamətdar hadisə - daxili işlər orqanlarında xidmətə qəbul, zabit rütbələrinə layiq görülmələri, eləcə də çox şərəfli və bir o qədər də məsuliyyətli peşə seçmələri münasibətilə təbrik edib.

O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gənc kadrların hazırlanması və irəli çəkilməsi işinə hər zaman xüsusi önəm verdiyini, nitq və çıxışlarında bunun gələcəyimizi şərtləndirən mühüm amillərdən biri kimi vurğuladığını xatırladaraq bildirib ki, kadr hazırlığı prosesinə xüsusi diqqət və qayğının nəticəsidir ki, indi daxili işlər orqanlarının orta və böyük rəis heyəti vəzifələrində xidmət edən əməkdaşların mütləq əksəriyyəti ali təhsilli hüquqşünaslardan ibarətdir.

Nazir dövlətə və xalqa xidmətin şərəfli bir vəzifə olduğunu, digər hüquq-mühafizə orqanları ilə birlikdə cinayətkarlıqla qətiyyətli və səmərəli mübarizə aparıldığını, cəmiyyət həyatının bütün sahələrində davam edən hərtərəfli inkişafın əsasında Ulu Öndərimizin və möhtərəm Prezidentimizin qeyd etdikləri kimi, məhz sabitlik amilinin dayandığını, bu istiqamətdə əldə olunmuş uğurların dövlətimizin başçısı tərəfindən hər zaman yüksək qiymətləndirildiyini gənc zabitlərin nəzərinə çatdırıb.

Sonra gənc zabitlərin respublikanın müxtəlif şəhər və rayon polis orqanlarında vakant olan vəzifələrə təyin edilmələri və onlara "polis leytenantı" xüsusi rütbələrinin verilməsi barədə Daxili İşlər nazirinin əmri elan edilib.

General-polkovnik Vilayət Eyvazov onları bir daha təbrik edərək çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını daim uca tutmalarını tələb edib, bilik və təcrübələrini artırmalarını, daim öz üzərlərində işləmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

O, əmin olduğunu bildirib ki, gənc zabitlər bu yöndə səylərini əsirgəməyəcək, dövlətçiliyə, anda sədaqətlə xidmət edəcək, göstərilmiş etimadı layiqincə doğruldacaqlar.

İyunun 1-də Asiya İnkişaf Bankının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və bankın rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.

Videokonfransda Azərbaycan tərəfdən Maliyyə naziri Samir Şərifov iştirak edib.

Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi, Yunanıstan Respublikasının Prezidenti Katerina Sakellaropulu, İraq Respublikasının Prezidenti Bərham Saleh, Mərakeşin Kralı VI Məhəmməd, Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbun, Vyetnam Sosialist Respublikasının Prezidenti Nquyen Fu Çonq, Laos Xalq Demokratik Respublikasının Prezidenti Bounyanq Voraçit, Finlandiya Respublikasının Prezidenti Sauli Niinistö, Braziliya Federativ Respublikasının Prezidenti Jair Bolsonaru, Koreya Xalq Demokratik Respublikasının Dövlət Şurasının sədri Kim Çen In, Portuqaliya Respublikasının Prezidenti Marselo Rebelo de Souza, Litva Respublikasının Prezidenti Gitanas Nauseda və digər dövlət və hökumət başçıları milli bayram - Respublika Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubları ünvanlayıblar.

Azərbaycan Prezidenti İlham Əliyev mayın 29-da Xorvatiyanın milli bayramı – Dövlətçilik Günü münasibətilə Prezident zatialiləri cənab Zoran Milanoviçə təbrik məktubu göndərib.

Dövlətimizin başçısı mayın 29-da İtaliya Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Prezident zati-alilәri cənab Sercio Mattarellaya təbrik məktubu göndərib.

Ölkəmizin rəhbəri iyunun 1-də "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə fərman imzalayıb.

İyunun 2-də Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında sərəncam imzalayıb.

İyunun 2-də dövlətimizin başçısı Azərbaycan Respublikasının mülki aviasiya işçilərinin mükafatlandırılması haqqında sərəncam imzalayıb.

Ölkəmizin rəhbəri iyunun 2-də "Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 2-də Sumqayıt şəhərində müasir işıqlandırma sistemlərinin quraşdırılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

NAİLİYYƏTLƏR ŞƏXSİ HEYƏTİN ƏZMKARLIĞINA SÖYKƏNİR

“Panter” xüsusi təyinatlı dəstəsi Daxili Qoşunların “N” saylı hərbi hissəsinin yüksək döyüş hazırlığı, nizam-intizamı və nümunəvi xidmətilə fərqlənən bölmələrindəndir.

Naxçıvan Muxtar Respublikasının müxtəlif iqlim və relyefə məxsus ərazilərində adına uyğun çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları digər bölmələrin tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar, praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlirlər.

Həmsöhbətim, xüsusi təyinatlı dəstənin komandiri vəzifəsini icra edən Turqay Musazadə deyir ki, 2018-ci və 2019-cu illərin xidməti-döyüş fəaliyyəti qiymətləndirilərkən xüsusi təyinatlı dəstə ard-arda hərbi hissənin tabor və dəstələri arasında 1-ci yerə layiq görülüb. Şəxsi heyətin əzmkarlığını rəhbərlik yüksək qiymətləndirir. Onlar da etimadı və inamı şərəfli xidmətləri ilə doğruldur, ən çətinin öhdəsindən gəlməklə, verilən tapşırıqları icra etməyə hər an hazır olduqlarını nümayiş etdirirlər.

Yeri gəlmişkən, hərbi hissə rəhbərliyi xüsusi təyinatlı dəstənin hər bir üzvünün gənc əsgərlərə örnək olduğunu, kapitan Musazadənin isə peşəkar hərbiçi kimi gələcəkdə daha böyük uğurlara imza atacağına əminliyini ifadə etdi.

Kapitan Turqay Musazadə 1991-ci ildə Şərur rayonunun Dəmirçi kəndində dünyaya göz açıb. 2009-2010-cu illərdə Müdafiə Nazirliyinin Naxçıvan şəhərində yerləşən “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlayıb. Zabit kimi Vətənə xidmət etmək istəyi ilə 2012-2014-cü illərdə Daxili Qoşunların zabit hazırlayan Orta İxtisas Hərbi Məktəbini (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi – A.Ə.) müvəffəqiyyətlə bitirərək “leytenant” hərbi rütbəsi alıb. Sonralar müxtəlif vəzifələrə təyin olunan hərbi qulluqçumuz, 2018-ci ilin fevral ayından may ayınadək Türkiyə Respublikasının İzmir vilayətində yerləşən Foça Jandarm Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığında müvafiq kurs keçib. Yüksək çalışqanlığı, bilik və bacarığı, eləcə də intizamlı olması sayəsində qısa müddətdə hərbi hissə komandanlığının etimadını qazanıb. Bir müddət sonra müsbət idarəçilik fəaliyyəti nəzərə alınaraq, hərbi hissənin xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi vəzifəsinə təyin olunub.



Kapitan T.Musazadə hissə komandanlığı tərəfindən xüsusi təyinatlıların hazırlığına hər zaman ciddi fikir verildiyini qeyd etdi: “Əsas vəzifəmiz qarşıya qoyulmuş tapşırıqların icrasına daim hazır olmaqdır. Dəstənin qarşısına qoyulan tapşırıqların xüsusiyyətləri şəxsi heyətin hərbi biliklərlə yanaşı, möhkəm mənəvi-psixoloji hazırlığının olmasını da tələb edir. Ona görə də yüksək döyüş hazırlığına malik xüsusi təyinatlı cəsur və iradəli olmalı, hər an dəyişə biləcək əməliyyat şəraitinə uyğun düzgün qərar qəbul etməyi bacarmalıdır. Silahlı cinayətkarların zərərsizləşdirilməsi, həmçinin, qarşıya qoyulmuş bu kimi digər tapşırıqların yerinə yetirilməsində sadalanan keyfiyyətlərin olması vacibdir”.

Dəstə komandiri, həmçinin, keçirilən məşğələlər zamanı hərbi biliklərdən əlavə, şəxsi heyətdə müsbət keyfiyyətlərin formalaşmasına da xüsusi diqqət yetirildiyini bildirdi: “Atəş və fiziki hazırlıqla yanaşı, müvafiq təlim proqramına uyğun olaraq, şəxsi heyətlə keçirilən xüsusi-taktiki, həmlə-desant, hərbi mühəndis hazırlığı, hərbi dağçılıq, hərbi topoqrafiya, tək əsgərin döyüş təlimi, ləpirçilik və yaşamaq uğrunda mübarizə kimi məşğələlərdə praktiki fəaliyyətə üstünlük verilir. Bundan əlavə, dəstənin istehkamçı yarımqrupunun hazırlığı diqqətdə saxlanılır”.

Kapitan T.Musazadə yüksək döyüş hazırlığı, nizam-intizamı və nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçuların-gizirlər Sərxan Zeynalovun, Kamal Mehdiyevin, Malik Cəlilovun, baş çavuşlar Maqsud Quliyevin, Camal Əkbərlinin və çavuş Elgün Əsgərovun adlarını da diqqətimizə çatdırdı.

“Vətənə sədaqətlə xidmət etmək “Panter”lərin başlıca amalıdır və dəstədə yüksək döyüş hazırlığının qorunub saxlanılması, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılması məhz xüsusi təyinatlıların möhkəm hərbi intizamına söykənir”,- deyən dəstə komandirinin tərbiyə işləri üzrə müavini, kapitan Məmməd Yusifov bildirdi ki, dəstənin qarşısına qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi xüsusi təyinatlıların ahəngdar birgə fəaliyyətindən də çox asılıdır.

İnanırıq ki, dəstənin şəxsi heyəti bundan sonra da yüksək peşəkarlıq və əzmkarlıq göstərəcək, sıralarımıza qoşulan gənclərə əsl nümunə olacaqlar.

mayor Anar Əhmədov

Karantin rejiminin yumuşaldılması, mağazaların, malların, ticarət mərkəzlərinin açılması ilə əlaqədar vətəndaşların Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə əməl etmələri üçün daxili işlər orqanlarının əməkdaşları yenə də gücləndirilmiş iş rejimində çalışırlar.



Xidmətləri rəğbət doğurur

Bu günlərdə qadın əməkdaşların da xidmətə cəlb olunması diqqətimizi çəkdi. Düzü, onların kişi həmkarlarımızla birlikdə xidmət aparmalarının vətəndaşların təəcübünə və marağına səbəb olduğunu da müşahidə etdik. Onların xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsi ilə bağlı insanların sıx toplaşdığı ərazilərdə mütləq qaydada tibbi maskadan istifadə etmək, 2 metrlik sosial izolyasiya məsafəsini saxlamaq barədə çağırışları, sözün əsl mənasında, rəğbətlə qarşılanırdı. Vətəndaş-polis münasibətlərinin daha da möhkəmlənməsi üçün həmkarlarımızın mülayim rəftarı, nəzakətli davranışı polis adını daşımağın həm də məsuliyyətli olmasının bariz nümunəsi idi...

Şəkillərini çəkəndə gülümsədilər. Və səhərdən axşama kimi ayaqüstə xidmət aparmağın çətinliyi ilə bağlı sualımıza cavabları belə oldu:

-Dövlətimizin, xalqımızın keşiyindəyik və bundan qürur duyuruq. Bizim üçün ən böyük xoşbəxtlik Vətənə xidmətdir, çünki Vətən böyük ailədir, onu qorumaq isə hər birimizin borcudur...

"Mübariz keşikdə"dən olduğumuzu bilmədilər. Yəqin ki, biləcəklər, qəzetimizin bu sayını oxuyanda...

Ruhiyyə Əliyeva,
polis baş leytenantı

MULTİKULTURAL DƏYƏRLƏRƏ SADİQLİK

Qaradərili Corc Floyd demokratiyanın beşiyində polis tərəfindən öldürüldü. Bu, birinci qətl deyil Amerikada və sonuncu olması da proqnozlaşdırılmır. İrqi və dini ayrıseçkilik təkcə okeanın o tayında deyil, dəyərlərinə inteqrasiya etdiyimiz Avropada dünən də olub, bu gün də var. Düzdür, Amerika ictimaiyyəti bu olaya səssiz qalmadı. Etiraz dalğası ştatları silkələdi, hətta ordunun yeridilməsi məsələsi müzakirə mövzusu oldu. Bəzi ştatlarda ordu müdaxiləyə hazır vəziyyətə gətirildi də. Super dövlətdə irqi ayrıseçkilik onu göstərdi ki, insan hüquqları onu qoruyanlar tərəfindən pozulanda kütlənin qəzəbinin qarşısı alınmaz olur.

Demokratiya, dəyərlər və insan hüquqları böyük güclərin ona dırnaqarası baxmasından sonra dəyərini itirəndə Suriya kimi dövlətlər xarabazarlığa çevrilir, əhalisi qaçqın-köçkün vəziyyətinə düşür.

Corc Floydun günahkar və ya günahsız olması məhkəmədə sübuta yetiriləcək, ancaq onun “boğularam” sözünə məhəl qoymayan Amerika polisi humanizm prinsiplərindən uzaq olduğunu Derek Çauvinin timsalında sərgiləmiş oldu.

Bu yerdə Azərbaycan Polisinə qara yaxanlara, çamur atanlara səslənmək istəyirəm. Bu günə kimi Azərbaycanda kiminsə dilinə, dininə, irqinə görə təqib olunduğunu eşitdinizmi? Azərbaycan Polisinin dilinə, dininə, irqinə görə kimisə öldürdüyü xəbərini duydunuzmu? Eşitmədiniz, duymadınız. Sabitlik adlı sərvəti qorumaq, “Hüququndan keçən əsgər hərə bir qəhrəman oldu” nidasının gələcək nəsillərin bir bayrağın altında oxuması naminə candan və qandan keçmək gərəkdir. Ulu öndər Heydər Əliyevin təbirincə desək müstəqilliyi qoruyub-saxlamaq onu qazanmaqdan daha çətindir. Müstəqil ölkənin vətəndaşı olmaq qürurunu xalqını söyməklə qarın doyuzduranlar, cib dolduranlar heç vaxt anlamazlar.

Kiçik bir olayı, anlaşılmazlığı dövlətə, onun bel sütunu olan polisə nifrət hissi ilə öz aləmlərində "dünyaya duyuran" söyüşcül tutuquşular-adını bloqqer qoyan xainlər nədənsə bu aralar Amerikadan, Avropadan sitat gətirmədilər. Onlar yalnız ağalarından sitat gətirib özlərini millətin "təəssübkeşi" kimi göstərməklə məşğuldurlar.

Təhsil Nazirliyinin qarşısındakı aksiyada asayişi pozmağa cəhd edənlərlə və metroda polisin “maska tax, özünü qoru” çağırışına məhəl qoymayanlarla insident yaranarkən günün dırnaqarası qəhrəmanı olmaq istəyənlərin guya polisə təpki göstərməsini xalqın "haqsızlığa qarşı dirənişi” kimi göstərmək istəyənlərin tapşırığı kimlərdən alması gün kimi aydındır. Karantin rejiminə nəzarəti həyata keçirən asayiş keşikçilərinin səbrini sınağa çəkmək istəyənlərin təxribatçı əməllərinə Azərbaycan xalqının cavabı onu qoruyan, onun güvənc yerinə çevrilən polisinə sosial şəbəkələrdən dəstək verməsi oldu. Vətənimizi bölücülərdən qorumaq üçün həmrəylik nümayiş etdirənlər yazdılar ki, Vətəni və xalqı söyənlər haqqı görə biləcək qədər xoşbəxt deyillər.

Kiçik bir haşiyə çıxmaq istəyirəm. ABŞ polisi öz ölkəsinin ərazi bütövlüyü və suverenliyi uğrunda heç vaxt döyüşməyib. Çünki ABŞ bütün müharibələri öz torpağında deyil, kənarda aparıb. Azərbaycan Polisi isə şanlı döyüş yolu keçib. Torpaqlarımızın müdafiəsi uğrunda sırasından yüzlərlə şəhid verib.

Dəyərlər ölkəsi, multikulturalizmin beşiyi olan Azərbaycanda asayişi etibarlı qorumaq üçün polis gecə-gündüz demədən ayıq-sayıq xidmət aparır. Bütün MDB məkanında o cinayətkarlıqla qətiyyətli mübarizənin ön sırasındadır. O, öz xalqının haqsızlığa qarşı olan səsi və Vicdanıdır. Amerikalı general Deyl Uotson da belə deyir: “Mən Azərbaycanda olarkən, Azərbaycan Polisinin hörmət və ehtiramını gördüm. O, öz millətinin vicdanı, şərəf və ləyaqətidir…”

Fikrimizi bir az da dəqiqləşdirək və qətiləşdirək: Multikulturalizm ifadəsi leksikonumuza daxil olmazdan öncə Azərbaycanın bütün insani dəyərlərə sahib çıxan, onu qoruyan bir ölkə olduğunu bütün dünya bilir və təqdir edir.

"Ölkəmizdəki sabitliyi gözügötürməyənlər suları bulandırmaqla məşğuldurlar. Xalqımız bir daha şahidi oldu ki, dövlət hər bir vətəndaşını düşünür və qoruyur. Pandemiya dövründə dövlət və xalq həmrəyliyi bir daha sübut etdi ki, biz birlikdə güclüyük. Polisimizin fəaliyyətinə gəlincə, onu demək istəyirik ki, asayiş keşikçiləri içdikləri anda sadiqliklərini bu çətin günlərdə də sübut etdilər". Bu fikirlər şəhid ailələrindən DİN-ə ünvanlanan məktublardandır.

Bəli, polisin fəaliyyətində humanizm əsas şərtdir. İnsana xoş münasibət, onun hüquq və azadlıqlarına hörmət mütləqdir. Azərbaycan Polisi xalqının xidmətçisidir. Onu güclü, dönməz və qorxmaz edən isə kürəyini söykədiyi xalqdır. Polisi güclü olmaqda suçlayanlara cavabımız isə belədir: "Güclü xalqın güclü də polisi olar."

Hafiz Təmirov,
polis polkovnik-leytenantı

AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ

POLİS ORQANLARINDA ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Respublikanın şəhər, rayon polis orqanlarında /Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi və əməliyyat müvəkkili vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 100 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı – "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında aparılır. Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları (daxili işlər və digər hüquq mühafizə orqanlarında zabit vəzifələrindən xaric edilmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2020-ci il may ayının 18 - dən iyun ayının 18 - dək **http://www.mia.gov.az/index.php?/az/content/29799/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən doldurараq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizələr Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilərək namizədlər barədə məlumatlar Baş Kadrlar İdarəsi tərəfindən öyrənildikdən sonra müvafiq qərar qəbul edilir.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi;

- ali təhsil haqqında diplom;

- hərbi bilet;

- əmək kitabçası (olanlar üçün);

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları», test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin **www.mia.gov.az** ünvanlı Veb saytında yerləşdirilmişdir.

Əlavə məlumat almaq üçün əlaqə telefonları:

(012) 590-93-51;

(012)-590-94-12;

(012) 590-93-64;

(012) 590-80-66.

DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN TEST İMTAHANININ PROQRAMI

Daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

Qanunvericilik aktları və nəzəri bilik sahələri:

-Azərbaycan Respublikasının Konstitusiyası.

-Dövlət və hüquq nəzəriyyəsi.

-Cinayət hüququ.

-Cinayət prosesi.

-İnzibati hüquq.

-Kriminalistikanın əsasları.

-Kriminalogiyanın əsasları.

-BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi.

-«Polis haqqında» Azərbaycan Respublikasının Qanunu.

-«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu.

-«Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu.

-«Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının Qanunu.

-«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu.

DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜÇÜN MİNİMAL FİZİKİ HAZIRLIQ NORMATİVLƏRİ

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin tələblərinə müvafiq olaraq, daxili işlər orqanlarında xidmətə qəbul olunan şəxslərin fiziki hazırlıq səviyyəsi müəyyən edilmiş aşağıdakı tapşırıqlar və normativlər əsasında yoxlanılır:

Qaçış: ***100 (yüz) metrə-15 saniyə, 1000 (min) metrə-4 dəqiqə;***

Turnikdə dartınma:

- çəkisi 80 kiloqramadək-10 dəfə;

- çəkisi 80 kiloqramdan yuxarı-6 dəfə;

Qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi-20 dəfə;

Arxası üstə uzanmış halda gövdənin döşəmədən qaldırılıb-endirilməsi-20 dəfə.

"MƏN" "BİZ" OLDUĞU ZAMAN GÜCLÜYÜK

Afrikada tədqiqatlar aparan andropoloq bir qəbilənin uşaqlarına oyun oynamağı təklif edir. O, ağacın altına meyvələr qoyub deyir ki, kim birinci qaçaraq ağaca çatarsa, mükafat olaraq meyvələri də o yeyəcək.

"Başla!" əmri verilir. Uşaqlar bir-birinin əlindən tutaraq ağaca tərəf qaçır və meyvələri birlikdə yeyirlər. Uşaqların bu hərəkəti andropoloqa qəribə gəlir və niyə belə etdiklərini soruşur. Aldığı cavab bu olur:

"Biz buna "ubuntu" deyirik. Yarışsaydıq, yarışı ancaq bir nəfər qazanacaqdı. Digərləri məğlub və kədərli ikən qalib gələnin meyvələri təkbaşına yeməsi necə ola bilərdi? Ona görə də bunu birlikdə etdik və meyvələri də bölüşərək yedik. "Ubuntu" bizim dilimizdə "Mən" "Biz" olduğumuz zaman "Mən"əm deməkdir".

Biz-Azərbaycan Polisi də bunu etdik. Pandemiya dövründə bizə həvalə olunanın öhdəsindən layiqincə gəlmək üçün gecə-gündüz bilmədik. Öz həyatımızı riskə atıb bu çətin günlərdə də həmişə olduğu kimi xalqımızla həmrəylik nümayiş etdirdik. Köməyə ehtiyacı olan aztəminatlı ailələrə, yaş məhdudiyyəti ilə bağlı "evdəqal" çağırışına riayət edən insanlara yardım göstərməklə "ubuntu" etdik. Çalışdıq ki, hər kəsə əlimiz çatsın, ünümüz yetsin. Yəni "Mən"in "Biz" olduğumuzu dedik. Bu günün işini sabaha qoymadıq, cinayətkarlıqla qətiyyətli mübarizəmizi də davam etdirdik. "Ən yaxşı dost çətin gündə tanınar"mış. Bunu ünvanımıza yazılan onlarla məktubda oxuduq və sevindik. Andımıza, adımıza sadiqliyimiz şeirə çevrildi, nəğməyə döndü. Dövlətimizin vətəndaşlara verdiyi önəmi, dəyəri biz də öz xidmətimizlə sərgilədik. Bunu hamı gördü, yazdı, paylaşdı. Sevindik, güc aldıq və daha da əzmlə çalışdıq. Ancaq, nədənsə, bu çətin, sıxıntılı günlərdə gəzməyə yox, söyməyə qərib ölkə axtaranlar, özgələrə satılmış sosial şəbəkələrin adsız "qəhrəmanları" üzə çıxmadılar. Nə kiməsə yardım

etdilər, nə də görülən nəcib əməllərdən danışdılar. Hər vəchlə polisin ünvanına çamur atıb suyu bulandırmağa çalışıb "dayday"larından sifariş gözlədilər. Qısası, Afrikadakı qəbilənin uşaqlarından ibrət götürüb içimizdəki "mən"sizlər "biz" ola, bizlərdən ola bilmədilər.

Tərifə, alqışa ehtiyacımız yoxdu. Əməlimizlə, fəaliyyətimizlə, sadiqliyimizlə 100 illik şərəfli döyüş və xidmət yolu keçərək özümüzü təsdiqləmişik. Bu gün vətəndaş-polis həmrəyliyi bizlərə-Azərbaycan Polisinə olan inam və etibarın əyani sübutudur.

İstəyirik ki, klaviatura və ekran arxasında gizlənən "aslanlar" şər, böhtan yağdırmaqdansa, susub abırsızlıqlarına kor olsunlar. Vətən daşı ola bilməsələr də, Vətəni daşlamasınlar.

Bu günü, sabahı etibarlı əllərdə olan Azərbaycanı qaranlıqlara boğmaq istəyənlərin arzusu gözündə qalacaq. Dünyanın "sabitlik adası"nda əmin-amanlığı qorumaq, asayişi etibarlı təmin etmək üçün xalqın dəstəyinə güvənən hüquq mühafizə, o cümlədən daxili işlər orqanları mübariz keşikdə ayıq-sayıqdırlar...

Teymur Əlizadə,
polis kapitanı

Yevlaxda maarifləndirmə tədbiri keçirilib



Yevlax Rayon Polis Şöbəsinin və Təhsil Şöbəsinin təşkilatçılığı ilə koronavirusla bağlı maarifləndirmə mövzusunda videokonfrans keçirilib.Videokonfransda yuxarı sinif şagirdləri iştirak ediblər.

RPŞ-nin rəisi, polis polkovniki Elnur Mehdiyev ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində görülən tədbirlər haqqında şagirdlərə geniş məlumat verib.

Bildirilib ki, hazırda virusun yayılması ilə bağlı vəziyyət nəzarət altına alınıb. Ona görə də ölkəmizdə koronavirusla əlaqədar karantin rejimi çərçivəsində tətbiq olunan bir sıra məhdudiyyətlər sanitar-epidemioloji vəziyyətə uyğun olaraq yumşaldılır, karantin rejimindən mərhələli çıxış mexanizmləri tətbiq edilir. Videokonfransda təhlükənin hələ tam sovuşmadığı, gündəlik yoluxma hallarının qeydə alındığı diqqətə çatdırılıb və hər kəsin Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə əməl etməsinin vacibliyi vurğulanıb. Şagirdlərə mövcud vəziyyətlə əlaqədar zəruri sosial davranış nümayiş etdirməyə, şəxsi gigiyena və tibbi-profilaktik qaydalara, sosial məsafəyə riayət etməyə, zərurət olmadığı halda evdən çıxmamağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa çağırış edilib.

Polis polkovniki E.Mehdiyev tədbirdə narkotiklərin insan sağlamlığına vurduğu zərərlərdən, erkən nikahın və dini radikalizmin cəmiyyətdə səbəb olduğu fəsadlardan da danışıb.

Daha sonra çıxış edənlər karantin rejimi dövründə Azərbaycan Polisinin və ağ xalatlı xilaskarların-həkimlərin fəaliyyətini yüksək qiymətləndirib, bu riskli peşə sahiblərinə kömək etmək üçün şagirdlərə diqqətli olmağı, sağlamlıqlarının qeydinə qalmağı, pis vərdişlərdən uzaq olmağı tövsiyə ediblər.



Aslan Qiyaslı,
polis baş leytenantı

Bakı şəhər Baş Polis İdarəsindən

Mayın 30-da paytaxtın Səbail rayonu ərazisindəki "Fəvvarələr meydanı"nda xüsusi karantin rejimi qaydalarına zidd olaraq, "1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü" ilə əlaqədar qısamüddətli fleşmob keçirilməsinə cəhd edilib.

Əhalinin sıx olduğu ictimai yerdə sosial məsafənin, mövcud preventiv tədbirlərin şərtlərinin pozulması ilə müşayiət olunan bu cəhdin qarşısı Bakı şəhər Baş Polis İdarəsinin və Bakı şəhər İcra Hakimiyyətinin aidiyyatı əməkdaşları tərəfindən alınıb, tamaşaçı qismində oraya toplaşmış insanlar ərazidən uzaqlaşdırılıb və əhalinin sərbəst hərəkəti təmin olunub.

Aparılan müvafiq araşdırmalardan sonra qısamüddətli tədbirin təşkilatçısı Əkbər Rəhmanov barəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, oraya toplaşmaqla xüsusi karantin rejiminin tələblərini pozan 50 nəfər barəsində isə İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsinə əsasən müvafiq tədbirlər görülüb.

Bir daha bildiririk ki, pandemiya dövründə COVID-19 virusu ilə mübarizə uzunmüddətli proses olduğundan xəstəliyə qarşı qabaqlayıcı tədbirlər hər bir şəxsin gündəlik həyat tərzinə çevrilməli, hazırkı vəziyyətdə hər kəs şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməlidir. Nəfəs yollarını qoruyan tibbi maskadan mütləq qaydada istifadə edilməli, insanlarla təmas zamanı 2 metrlik ara məsafəsi saxlanılmalıdır.

TƏK ƏLDƏN "SƏS ÇIXDI"...

- Qardaş salam. Buralarda kirayə ev var? Mənə ucuz, amma şəraiti olan ev lazımdı.

- Düzünü desəm, bilmirəm. Bir az gəzib-dolaşsan, yəqin ki, taparsan.

"Kirayə ev",-deyib qəsəbəni gün batanacan gəzdi. İşığı yanmayan, yaşayış olmayan evləri manşırlayıb yadında saxladı. Bura tezliklə baş çəkmək olmazdı, çünki şübhə doğurardı. Yolboyu xəyalında dağı-arana, aranı da dağa daşıdı. Bütün günü ayaqüstə olduğundan yorulmuşdu.

Üstündən illər ötsə də sol qolunun ağrısı ürəyini yemişdi. Çalışırdı ki, o günü heç vaxt xatırlamasın. Zavodda iş başında itirdiyi əli tez-tez yuxusuna girir, sanki onunla dil açıb danışırdı. Səhlənkarlıq etdiyi üçün onu günahkar bilirdi.

Artıq tək əllə iş görməyə vərdiş eləmişdi. Bir tikə çörək yeyib divana uzandı. Televizoru açıb kanalları çevirdi. "Onu bağışlamaq olarmı" filmindəki Tərlan obrazının prokurorluq əməkdaşlarına etdiyi "iz azdırmaq üçün dəmir beş barmağı qəsdən solaxay düzəldiyi, ancaq sağ əllə işlədiyi" etirafı beyninə batdı. Bir qolunun olmaması da ondan kimsənin şübhələnməyəcəyinə əminlik yaratdı...

Hamı yaxşı bilir ki, "tək əldən səs çıxmaz" düşüncəsilə yola düzəldi.

Göyün üzü hələ bombozuydu. Küçədən əl-ayaq tam çəkilmişdi. Maşırladığı evlərdən birinin qapısını döyüb səsləndi.

- Arif, ay Arif, evdəsən?

Səsə çıxan olmadı. Qonşuluqdakı evlərin işığı da yanmadı. Hasardan aşıb həyətə düşdü. Evin qapısını ehmalca sındırıb içəri girdi. Hər tərəfi ələk-vələk elədi. Qonaq otağındakı siyirmədən 200 manatı, yataq otağındakı dolabdan pal-paltarı və mətbəxdəki bahalı qab-qacağı kisəyə yığıb dan yeri sökülməmiş gözdən itdi...

Malları xırıd etmək üçün ən yaxşı yer Sabunçu bazarı idi. Gün günortaya keçəndə cibində 250 manatı vardı. Köhnə dost-tanışını başına yığıb, yeyib-içib, deyib-gülüb şənləndilər...

Saray qəsəbəsinin dadı damağında qalmışdı. Bu dəfə kirayə ev tapmaq bəhanəsi ilə yox, ev almaq istəyən müştəri kimi qapıları döyəcəkdi...

Bəxti üzünə gülmüşdü. Yolda, rizdə nə qarşısına çıxan, nə də ki, onu görən olmuşdu. Dəmir barmaqlığı qırıb, vintaçanla pəncərəni açıb içəri girəndə evin genişliyi onu valeh etdi. Fənərin işığını ətrafa salıb göz gəzdirəndə heyrətdən ağzı açıla qaldı. Böyük ekran televizoru, noutbuku, bir qızıl, dörd də qızıl qiymətində olan bahalı saatları, eynək və üzqırxanı götürüb aradan çıxdı. Bu dəfə Yasamal bazarına gəldi. Televizoru və notbuku 350, qızıl saatı isə 220 manata satdı. Beləcə, ard-arda daha 10 dəfə Saraya "baş çəkdi". Aradabir özüylə "köməkçi" də götürürdü. Saraydan sonra üç dəfə Novxanını, iki dəfə də Mehdiabadı "ziyarət" etmişdi.

Şikayətçilərin ardı-arası kəsilmirdi. Abşeron RPİ əməkdaşları törədilən silsilə və ənənəvi oğurluqlar barədə zərərçəkənləri dinləyir, onlara tezliklə müqəssir(lər)i yaxalayacaqlarına söz verirdilər.

Növbəti dayanacağı Digah idi. Şərqarışan vaxt "köməkçisi" Əhmədlə birlikdə daxil olduqları evdən üç min manat və qır-qızıl götürüb çıxmaq istəyirdilər ki, Abşeron Rayon Polis İdarəsinin əməliyyatçıları başların üstünü aldılar. Deməyə söz, getməyə isə yol yox idi.

Teymur Əlizadə,
polis kapitanı

TORPAQDA İZİ QALANLAR

Səmədov Əhmədağa Aslan oğlu 16.02.1958-ci ilin fevral ayının 16-da Sabirabad rayonunun Narlıq kəndində doğulub. Qasımbəyli kənd orta məktəbində təhsil alıb. Riqada hərbi xidmətdə olub. Hərbi xidmətini başa vurduqdan sonra Daxili İşlər Şöbəsinin nəzdindəki Mühafizə bölməsində xidmətə başlayıb. 1986-cı ildə Bakı Xüsusi Orta Milis məktəbinə qəbul olunub. 1988-ci ildə zabit kimi xidmətə başlayıb. Torpaqlarımıza düşmən təcavüzü başlayanda igid oğullarımız kimi Ə.Səmədov da silaha sarılaraq ön cəbhəyə yollanıb. Cəbrayılın, Xocavəndin müdafiəsində dayanıb.

1991-ci il dekabr ayının 15-də daşnaklar xeyli canlı qüvvə və zirehli texnika ilə Xocavənd rayonunun Şayaq kəndinə hücum edərkən 33 yaşlı polis baş leytenantı Əhmədağa Səmədov 15 nəfər silahdaşı ilə birgə əsl qəhrəmanlıq göstərib. Bu qeyri-bərabər döyüşdə erməni hərbçiləri xeyli itki versə də o da düşmən güləsinə tuş gəlib.

Cəsur polis əməkdaşının əziz xatirəsi bu gün də ehtiramla anılır. Azərbaycan Respublikası Prezidentinin 15.01.1995-ci il tarixli fərmanı ilə ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib. Oxuduğu məktəbə adı verilib.

Natiq Abdullayev,
polis kapitanı

2020-ci ilin II yarısı üçün "Mübariz keşikdə"yə-öz qəzetinizə abunə olmağa tələsin!

Daxili İşlər Nazirliyinə ünvanlanan məktublar bir daha onu deməyə əsas verir ki, xalqımız asayişin və sabitliyin keşiyində ayıq-sayıq dayanan polisini sevir, etibar edir, onu özünə güvənc yeri bilir.

Güvənirlər, sevirlər və yazırlar

"Kürəsəlləşən dünya XXI əsrdə yeni koronavirus təhlükəsi ilə üz-üzə qaldı. Ümumdünya Səhiyyə Təşkilatı həyəcan təbili çalaraq infeksiyanı pandemiya elan etdi. Gündoğan yarımkürədən ildırım sürəti ilə qərb yarımkürəsini əhatə edən pandemiya təəssüflər olsun ki, Azərbaycandan da yan keçmədi. Ancaq ölkə prezidenti cənab İlham Əliyevin vaxtında həyata keçirdiyi qətiyyətli tədbirlər təhlükənin törədəcəyi fəsadları minimuma endirdi. Əhalinin yoluxma təhlükəsinin qarşısının alınması məqsədilə aidiyyatı dövlət orqanları gücləndirilmiş iş rejiminə keçərək səfərbər olundu. "Evdəqal"maqla bəlaya qalib gəlmək olar",-deyib mübarizənin ön sıralarında yer alan səhiyyə işçiləri və daxili işlər orqanlarının şəxsi heyəti həyat qurtarmaq üçün həyatlarını riskə atdılar.

Azərbaycan Polisi dünən olduğu kimi bu gün də cəbhədədir, vətəndaşa təhlükədən daha yaxındır, adına və andına sadiqdir. Üzərinə düşən vəzifələri uğurla icra edir, xidməti fəaliyyətdə fədakarlıq nümayiş etdirir. "Evdəqal" çağırışına riayət etməyənlərin, lüzumsuz küçəyə çıxıb xüsusi karantin rejiminin qaydalarını pozanların əsassız narazılıqları ilə qarşılaşsa da nəzakətlə davranır, görülən qabaqlayıcı profilaktik tədbirlərin məhz onların sağlamlıqları üçün vacib olduğunu izah edirlər. Asayiş keşikçiləri bu çətin və ağır günlərdə nümunəvi addımları, nəcib əməlləriylə bir çoxlarına örnək olmağı da bacardılar. Həm də əsl vətəndaş mövqeyi sərgilədilər. Aztəminatlı, ehtiyacı olan ailələrə baş çəkib onlara köməklik göstərdilər. Tədbirlər çərçivəsində polis veteranlarının ailələri də diqqətdən kənarda qalmadı. Bax, bu Azərbaycan Polisinin vətəndaşına verdiyi dəyərin daha bir əyani təzahürü idi.

Çoxları bilsə də, yenə xatırlatmaqda fayda var. Hələ o zamanlar müstəqilliyin ilk illərində erməni işğalçılarının torpaqlarımıza təcavüzü başlayanda tabel silahı ilə cəbhəyə, ön xəttə ilk atılan polis idi. Sıralarından yüzlərlə şəhid verməsinə baxmayaraq torpaqlarımızın müdafiəsi uğrunda əzmlə, şücaətlə döyüşürdülər.

Onlar bu gün də döyüşürlər-yaş, irq, cins, mənsubiyyət tanımayan gözəgörünməz düşmənlə. Əminik ki, ictimai asayişin və təhlükəsizliyin keşiyində mətin dayanan, cinayətkarlıqla qətiyyətli mübarizə aparan daxili işlər orqanlarının şəxsi heyəti bu savaşdan da qalib ayrılacaq".

Bu fikirlər Bakının bir qrup ziyalısı adından yazıçı-jurnalist Hüseyn Məmmədovun DİN-ə ünvanladığı məktubundandır.

HÜQUQ PSİXOLOGİYASI NƏDİR?

Hüquq psixologiyası elmdə yeni bir sahə olsa da sürətlə inkişaf edir. O, psixologiya elmindəki məlumatların hüquqi sahəyə tətbiqi kimi başa düşülə bilər. Hər iki elmlər sistemini bir-birinə yaxınlaşdıran bir ümumi cəhət var ki, o da onların hər ikisinin obyektinin insanın rəftar və davranışı, daxili psixoloji aləmi, fərdi-psixoloji xüsusiyyətləri ilə əlaqədar olmasıdır.

Hüquq psixologiyasında cinayət törədən fərdlərin şəxsiyyət strukturu və ruhi vəziyyəti təhlil edilərək cinayətlə olan bağlantısı ələ alınır. Fərdlərin psixoloji durumu incələnərək onu cinayətə təhrik edən faktorlar ortaya çıxarılır. Hüquq psixoloqları cinayətə təhrik edən faktorların müəyyən edilməsi və veriləcək cəzanın azaldılması üçün gərəkli olan tədbirlərin görülməsindən məsuldurlar.

Cinayətkarın psixoloji profili dəyərləndirilərkən aşağıdakı faktorlar diqqətə alınır: cinayətkarın cinsiyyəti, yaşı, mədəni halı, təhsil səviyyəsi, maddi vəziyyəti, hüquq mühafizə orqanı əməkdaşının suallarına reaksiyası, cinsi yetkinlik səviyyəsi, keçmişdə qeydə alınmış cinayətlərinin olub-olmaması və s.

Ümumən hüquq psixologiyası aşağıda qeyd edilən problemlərin psixoloji əsaslarını öyrənir:

- Hüquqauyğun davranış (hüquqi-şüur, əxlaq, ictimai rəy, sosial stereotiplər);

- Cinayi davranış (cinayətkarın şəxsiyyətinin strukturu, cinayi stereotip, cinayətkar qrupun strukturu, cinayi şərait, zərərçəkənin şəxsiyyətinin strukturu və həmin strukturun cinayi davranışın mənşəyindəki rolu);

- Hüquq mühafizəsi fəaliyyəti (hüquq pozğunluqlarının profilaktikası, istintaq psixologiyası, məhkəmə prosesinin psixologiyası, məhkəmə-psixoloji ekspertizası);

- Hüquq pozanların, cinayət etmişlərin yenidən sosiallaşması (əmək-islah psixologiyası, İƏD-azad olunduqdan sonra adaptasiya psixologiyası);

- Yetkinlik yaşına çatmayanların davranışı və onların psixoloji problemləri.

Hüquq psixoloqlarının verdiyi məlumatlar, məhkəmə prosesinin daha qısa vaxtda nəticələnməsi, hadisələrin daha tez aydınlaşması və hakimin qərarvermə müddətində təsirli rola malikdir. Hüquq psixoloqlarının apardıqları araşdırmaların bir neçəsini təqdim edirik:

❖Qəyyumluq iddiası zamanı valideynlərin psixoloji vəziyyətini incələyərək, uşağın hansı valideynin himayəsinə verilməsini müəyyən etmək.

❖ Susma haqqından istifadə edib, məhkəmədə ifadə verməməkdə israr edən cinayətkarlarla əlaqədə olub, ifadə vermələrini təmin etmək.

❖Cinayətkarın zəka səviyyəsinin, məhkəmədə özünü müdafiə edə biləcək yetərlilikdə olub-olmadığını təyin etmək.

❖Şahidlərin şahidlik edə biləcək yetərli zəkaya və ruhi sağlamlığa malik olmalarını təsdiq etmək.

❖Cinayətkar uşaqların törətdikləri cinayətin fərqində olub-olmadıqlarını araşdırmaq.

❖ Cinayətkarın cinayəti törədərkən affekt vəziyyətində olub-olmamasını müəyyən etmək.

❖ Günahı sübut edilməmiş şübhəlilərin həqiqətən günahkar və ya cinayətlə hər hansı bir əlaqələrinin olub-olmadıqlarına yönəlmiş psixoloji araşdırmalar aparmaq.

May ayının 27-dən iyunun 2-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 199 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 83 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 81, o cümlədən borclu şəxs qismində axtarışda olan 30 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 11 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 11 nəfər ölmüş, 6 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 122 fakt müəyyən edilmişdir.

DÜNYAYA PƏNCƏRƏ

Beynəlxalq Cinayət Polisi İdarəsi - İnterpolun tərəfindən dörd ildir ki, axtardığı "Maseratti" markalı avtomobil Türkiyənin Konya Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən şəhərdəki dayanacaqlardan birində tapılıb. Bu barədə İnterpola yazılı məlumat göndərilib. Bildirilib ki, təxminən 102 min ABŞ dolları dəyərində olan nəqliyyat vasitəsi 2016-cı ildə Almaniyadan oğurlanaraq Türkiyəyə gətirilib. Tapılan vaxt onun üzərində hansısa dövlət qeydiyyat nişanı olmayıb.

Axtarışlar zamanı bir nəfər saxlanılsa da, o avtomobilin dostu tərəfindən gətirildiyini bildirib.

******

İtaliya parlamentinin deputatlar palatası koronavirusun yayılması ilə bağlı karantin qaydalarının pozulmasına görə müəyyən edilən maksimal cərimənin azaldılmasına yekdilliklə səs verib. Bundan sonra cərimələrin məbləği 400-1000 avro arasında dəyişəcək.

İtaliya Daxili İşlər Nazirliyinin məlumatına əsasən, martın 11-dən bu günədək ölkədə 400 mindən çox insan və 10 minə yaxın müəssisə karantin rejimini pozub.

******

Səudiyyə Ərəbistanında intizam məqsədilə tətbiq olunan qırmanc cəzası ləğv edilib. Bu barədə ölkənin Ədliyyə Nazirliyi məlumat yayıb. Qərara əsasən, intizam məqsədilə alternativ cəzalardan istifadə ediləcək.

Ədliyyə naziri bununla bağlı məhkəmələrə əmr göndərdiyini açıqlayıb. O, bütün məhkəmələrə qırmanc cəzası əvəzinə səlahiyyətli orqanlar tərəfindən təyin ediləcək həbs, cərimə və ya alternativ cəzaların verilməsi ilə bağlı çağırış edildiyini bildirib.

******

Misir polisi "Liverpul" klubunun məşhur futbolçusu Məhəmməd Salahın təsvir edildiyi maskalardan istifadə etməklə soyğunçuluqla məşğul olan dəstə üzvlərini həbs edib. Quldurlar paytaxt Qahirədə mağazaya basqın etmək istəyərkən saxlanılıblar.

******

Türkiyədə COVID-19 pandemiyası ilə bağlı əsası olmayan və təxribat xarakterli paylaşımlar edən 510 nəfər saxlanılıb. Bu barədə Türkiyənin Daxili İşlər Nazirliyindən bildirilib. Qeyd edilib ki, araşdırmalar zamanı bu məlumatların yayıldığı 10 min 111 sosial media hesabı və 1105 şübhəli şəxs müəyyən edilib. Onlardan 510-u artıq saxlanılıb.

******

Sankt-Peterburq şəhərində hakerlər xüsusi proqramla yanacaqdoldurma məntəqələrindən benzin oğurlayıblar. Haker qrupu hazırladığı xüsusi proqram vasitəsilə şəhərin müxtəlif yanacaqdoldurma məntəqələrindən 2 milyon rubl dəyərində (47 min manat) benzin oğurlayıblar. Cinayəti törətməkdə şübhəli bilinən iki nəfər saxlanılıb.

Araşdırma nəticəsində məlum olub ki, hakerlər avtomobillərinə benzin vurduqdan sonra bank kartı ilə ödədikləri pulu dərhal öz hesablarına geri qaytarıblar.

Natiq Cavadov

MÜBARİZ KEŞİKDƏ

qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

BURAXILIŞA MƏSUL:
E.ZAHİDOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.044

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 18:00
Qiyməti 40 qəpik